**AZƏRBAYCANDA DAYANIQLI SU EHTİYATLARI YAŞIL İQTİSADİYYATIN MÜHÜM AMİLLƏRİNDƏN BİRİDİR**

**İftixar Əyyubov**

*Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin "Sukanal"*
*Elmi Tədqiqat və Layihə İnstitutu, Bakı*
*iftixar.eyyubov@mail.ru, iftixar.eyyubov@azersu.az*

Son illər ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası ekoloji problemlərin operativ həll olunmasına, ətraf mühitin mühafizəsi istiqamətində ardıcıl və səmərəli tədbirlərin görülməsinə əlverişli şərait yaratmışdır.

Ulu Öndər Heydər Əliyevin təbiətə, ölkəmizin flora və faunasına olan diqqəti, ətraf mühitə göstərdiyi qətiyyətli dəstəyi bu gün Azərbaycan Prezidenti İlham Əliyevin də fəaliyyətinin başlıca stimuluna çevrilmişdir. Eləcə də ölkəmizin Birinci Xanımı, Respublikanın Birinci Vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə reallaşdırılan layihələr Azərbaycanda ekoloji mühitin yaxşılaşacağına inam yaradır.

İnsanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması naminə səmərəli istifadə edilməsi ölkədə aparılan sosial islahatların mühüm tərkib hissələrindən biridir. Ölkə rəhbərliyinin su ehtiyatları, ekologiya ilə bağlı məsələləri daim diqqət mərkəzində saxlaması ətraf mühitin yaxşılaşdırılması istiqamətində aparılan işlərə böyük təkan vermiş, bu sahədə iri layihələr uğurla həyata keçirilmişdir və hazırda da davam etdirilir.

Prezident İlham Əliyev 2 fevral 2021-ci il tarixində "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədini təsdiqləyib. Bəhs olunan sənədə əsasən, 2030-cu ilədək olan dövrü əhatə edən strateji mərhələ üçün beş milli prioritet müəyyənləşdirilib. Onlardan biri də təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi hədəfinə çatmaqdır. Sənəddə vurğulanır: "Qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq, ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməli, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası təşviq edilməlidir. Bu, istilik effekti yaradan qaz emissiyasının beynəlxalq normalara uyğun səviyyədə saxlanılması istiqamətində göstərilən səylərə mühüm töhfə olacaqdır".

Ölkəmizdə ekoloji problemlərin həllinə Cənubi Qafqazın ən böyük ictimai təşkilatı olan və Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu sanballı töhfələr verir. Fondun vitse-prezidenti, IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə aktual ekoloji problemlərin həlli, əhali arasında ictimai-ekoloji nəzarətin gücləndirilməsi məqsədilə Heydər Əliyev Fondu və IDEA İctimai Birliyi tərəfindən "Ağacların kəsilməsinə yox!" proqramı çərçivəsində ölkəmizdə genişmiqyaslı tədbirlər həyata keçirilmişdir. Eyni zamanda Heydər Əliyev

Fondu və "Regional İnkişaf" İctimai Birliyi tərəfindən Azərbaycanın bölgələrində çoxlu sayda meyvə bağları salınmış, Xəzər sahillərində təmizlik aksiyaları keçirilmişdir.

2022-ci il noyabrın 11-də Səmərqənd şəhərində Türkiyə Respublikasının təşəbbüsü ilə hazırlanan "Ümumi evimiz olan Dünya üçün Sıfır Tullantı üzrə Qlobal öhdəliyə dair Bəyannamə"ni Azərbaycan Respublikasının Birinci xanımı Mehriban Əliyeva, Özbəkistan Respublikasının Birinci xanımı Ziroatxon Mirziyoyeva, Macarıstanın Baş nazirinin xanımı Aniko Levai imzalayıb.

Səmərqənd Bəyannaməsini qlobal miqyasda ekoloji problemlərin aradan qaldırılmasına yeni çağırış kimi dəyərləndirmək mümkündür. Bəyannamədə Paris Sazişindəki və Dayanıqlı İnkişaf Məqsədlərinin 2030-cu il Gündəliyindəki hədəflərə nail olunması istiqamətində tükənən ehtiyatların səmərəli istifadəsinin təşviqi və təkrar istifadəsi, eləcə də tullantıların yaranmasının təkrar emal vasitəsilə azaldılması zərurəti qeyd edilir. Həmçinin tullantıların dayanıqlı idarə olunması ilə resursların səmərəliliyi və iqlim dəyişikliyi arasında güclü əlaqənin olduğu qəbul edilir. Bəyannamədə tullantıların dayanıqlı idarə olunması strategiyasının həyata keçirilməsinə razılıq ifadə olunur. Sənədə görə, dünyada sıfır tullantı yanaşmasının təbliğ olunacağı və qabaqcıl təcrübələrin paylaşılacağı vəd edilir. Bəyannamədə BMT-yə üzv dövlətlərə, vətəndaş cəmiyyətlərinə, özəl sektora və mediaya strategiya və yanaşmaları dairəvi iqtisadiyyata keçidin sürətləndirilməsinə, tullantıların iqlim dəyişikliyinə təsirinin azaldılmasına uyğunlaşdırmağa dair çağırış edilir. Qeyd edək ki, Bəyannaməni BMT-nin Baş katibi Antonio Quterreş də imzalayıb.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un bu il Azərbaycanda keçirilməsi ölkə vətəndaşlarının, ekoloji problemlərin həlli ilə məşğul olan dövlət qurumlarının və qeyri-hökumət təşkilatlarının, hüquq-mühafizə orqanlarının, kütləvi informasiya vasitələrinin qarşısında mühüm vəzifələr qoyur.

Qeyd edək ki, Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəfdaş olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulub. Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarının 40 faiz azaldılmasından ibarətdir.

Dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə Azərbaycanın ev sahibliyi etməsi Prezident İlham Əliyevin növbəti təntənəli qələbəsidir.

Azərbaycanda kənd təsərrüfatı sektorunda intensiv inkişaf planlaşdırılır. Məqsəd ölkənin kənd təsərrüfatına olan xarici asılılığı minimuma endirməkdir. Təkmilləşdirilməmiş suvarma infrastrukturu və iqlim dəyişmələri ilə əlaqədar kənd təsərrüfatında suya artan tələbat nəticəsində hövzədə sudan istifadə də artacaq. İqlim dəyişmələri də su ehtiyatlarının azalmasına gətirib çıxardığına görə, gələcəkdə bu amil təbii suların mühafizəsi və infrastrukturun bərpası tədbirləri həyata keçirilərkən nəzərə alınmalıdır. Bunlar su ehtiyatlarının çirklənməsinin qarşısının alınması, biomüxtəlifliyin qorunması, yaşıllıqların artırılması, atmosfer havasının mühafizəsi, torpaqların deqradasiyasının qarşısının alınması, o cümlədən neft və digər tullantılarla çirklənmiş torpaqların təmizlənməsi, təhlükəli tullantıların idarə olunmasının təkmilləşdirilməsini əhatə edir.

Azərbaycan Milli İqlim Dəyişmələri Mərkəzi tərəfindən iqlim dəyişmələrinin su ehtiyatlarına təsiri qiymətləndirilmişdir. Hesablamalara görə, 2050 və 2100-cü illərə kimi su ehtiyatlarının müvafiq olaraq 22,5 və 20,7% azalması proqnozlaşdırılır. Azərbaycanın təbii su ehtiyatlarının təqribən 70%-i transsərhəd çayların payına düşür. Ölkəmizin transsərhəd su siyasəti mövcud beynəlxalq sənədlərə əsaslanır. Bu siyasətin əsasını su ehtiyatlarından qonşu ölkələrlə birgə istifadə və onların ədalətli bölüşdürülməsi prinsipləri təşkil edir. Maliyyə çatışmazlığı sudan istifadədə müasir və ekoloji cəhətdən effektiv üsulların tətbiqini ləngidir.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 iyul tarixli 2178 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı"na uyğun olaraq, ölkədə su ehtiyatlarının artırılması, əhalinin içməli su təminatının yaxşılaşdırılması, əkinəyararlı torpaqlarda müasir təsərrüfatlar yaradılmasının təşviqi və əhalinin məşğulluğunun dəstəklənməsi məqsədilə bir neçə su anbarının yaradılması qərara alınmışdır.

2022-ci il üzrə respublikada suvarılan torpaqların sahəsi 1,484 mln ha təşkil edir (şəkil). 1970-ci illə müqayisədə ölkəmizdə suvarılan torpaqların sahəsi 355,0 min ha artmışdır. Respublikamızda suvarma əsas su istifadəçisi olduğuna görə bu artım növbəti 10-20 il ərzində 10-20% ola bilər.

Respublikada 2022-ci ildə kənd təsərrüfatına yararlı torpaqların sahəsi 4780,5 min hektara çatdırılmışdır. 1970-ci ildə ölkəmizdə kənd təsərrüfatına yararlı torpaqların sahəsi 4253,0 min ha təşkil

etmişdir. 1970-ci illə müqayisədə kənd təsərrüfatına yararlı torpaqların sahəsi 527,5 min ha artmışdır. Bu isə kənd təsərrüfatına tələb olunan suvarma suyunun daha da artması deməkdir.




**Şəkil.** Azərbaycanda suvarılan torpaqların sahəsi, min ha

Yuxarıda qeyd olunan rəqəmlərdən göründüyü kimi, Azərbaycanda əsas su istifadəçisi suvarma əkinçiliyidir və bu sektorda sudan bitkilərin vegetasiya dövründə (aprel-avqust aylarında) daha çox istifadə olunur.

Son illərdə ölkəmizdə əhali hər il orta hesabla 100000 nəfər artır. Aydındır ki, bu artım suya tələbatı artıracaqdır. Respublikamızda 1970-ci illə müqayisədə əhalinin sayı 1,93 dəfə və ya 4900000 nəfər artmışdır. Bu isə istər içməli suya, istərsə də məişət məqsədli suya olan tələbatın artması deməkdir.

Tezisdə əsas məqsəd Şirvan çaylarının qış axımlarından səmərəli istifadə edilməsidir. Bu məqsədlə ortasulu dövrün axım məlumatlarına əsasən çaydan suyun götürülməsi əsaslandırılmışdır. Çayların illik axım həcmləri hesablanmış və oktyabr-fevral ayları ərzində ortasulu dövrdə illik axım həcminin 30%-inin və ya 245,7 mln $m^3$-inin, azsulu dövrdə illik axım həcminin 39%-inin və ya 127,6 mln $m^3$-inin keçdiyini müşahidə edirik. Apardığımız təhlillər göstərmişdir ki, Şirvan çaylarının qış axımlarından səmərəli şəkildə istifadə edilmir və həmin dövrdə çayların illik axım həcminin 30-40%-ə qədəri tranzit rolunu oynayır. Bütün bunları nəzərə alaraq, tədqiqat ərazisindən axan çayların qış axımlarından ekoloji axımlar nəzərə alınmaqla, əhalinin dayanıqlı içməli su təchizatında və kənd təsərrüfatında istifadə olunması variantı araşdırılmışdır.

Bir sıra alim və mütəxəssislərin, eləcə də Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına əsasən qeyd edilə bilər ki, məhdud su ehtiyatına malik olan ölkəmizin ciddi şəkildə su ehtiyatlarının mühafizəsinə və səmərəli şəkildə istifadəsinə ehtiyac vardır. Ölkəmizdə kənd təsərrüfatının inkişafı, suvarma əkinçiliyinin genişlənməsi və əhalinin sürətlə artması, eləcə də qlobal iqlim dəyişmələrinin təsiri fonunda çaylarda axımın azalması, yağıntıların vegetasiya dövründə az düşməsi, suya tələbatın durmadan artması və s. çayların axımlarından səmərəli istifadə olunmasını zəruri edir.

Bütün bu səbəblərə görə, biz hamılıqla ölkəmizin flora və faunasının qorunması qayğısına qalmalı, torpaqlarımızın məhsuldar, sularımızın təmiz, davamlı olması üçün əlimizdən gələni etməliyik. Biz bütün bu işləri öz vətəndaşlıq vəzifəmizə çevirməliyik.